**Dövlət Statistika Komitəsinin nümayəndələrinin Moskva şəhərində təşkil edilmiş "Gender statistikası" mövzusunda keçirilmiş tədbirdə iştirakı haqqında**

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin nümayəndələri Əhali və gender statistikası şöbəsinin müdiri Rza Allahverdiyev və şöbənin baş məsləhətçisi Zəbihə Əsgər MDB Dövlətlərarası Statistika Komitəsi və Rusiya Ali İqtisad Məktəbinin Milli Tədqiqatlar Universiteti tərəfindən 29-30 may 2012-ci il tarixlərində Moskva şəhərində "Gender statistikası" mövzusunda təşkil edilmiş tədbirdə iştirak etmişlər. Bu tədbirdə MDB ölkələrinin milli statistika xidmətlərinin və MDB Dövlətlərarası Statistika Komitəsinin 27 mütəxəssisi iştirak edirdi.




Tədbirin keçirilməsinin əsas məqsədi MDB ölkələrinin milli statistika xidmətlərinin bu günədək gender statistikası sahəsində yerinə yetirdikləri işlər və gələcəkdə bu sahədə qarşıda duran planlarla tanışlıqdan ibarət olmuşdur.

Tədbirdə Gender statistikası nədir, hansı bölmələrdən ibarətdir və ölkədə gender statistikasının inkişaf etdirilməsinin hansı səbəbdən mühüm olması, gender statistikası üzrə məlumatların necə işlənib hazırlanması və bu zaman nə kimi çətinliklərin yaranması, həmin məlumatların necə yayılması, "Gender statistikasının əsas məlumat mənbəyi və gender statistikası göstəricilərinin təkmilləşdirilməsi" barədə ayrı-ayrı təqdimatlarla çıxış etmişlər.

Tədbirdə Azərbaycan, Belarus, Qazaxıstan, Moldova və Özbəkistan respublikalarının milli statistika xidmətlərinin nümayəndələri tərəfindən "Azərbaycan Respublikasında gender statistikası üzrə məlumatların yığılması və yayılmasının təşkili", "Belarus Respublikasında gender statistikasının inkişafı", "Gender statistikası sahəsində Qazaxıstanın təcrübəsi", "Özbəkistan Respublikasında

gender statistikası" və s. kimi təqdimatlar iştirakçıların nəzərinə çatdırıldı və geniş müzakirələr aparılaraq iştirakçıların sualları cavablandırıldı.

Daha sonra Dövlətstatkomun nümayəndələri "Azərbaycan Respublikasında gender statistikası üzrə məlumatların yığılması və yayılmasının təşkili" mövzusunda hazırlanmış təqdimatda ölkəmizdə qadın və kişilərin bərabər hüquq və imkan azadlıqlarının Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyyən edilməsi, Azərbaycan Hökumətinin Pekin şəhərində keçirilmiş IV Ümumdünya Qadınlar Konfransının «Fəaliyyət platforması»nı qəbul etməsi və ona uyğun olaraq, ölkədə gender statistikasının inkişaf etdirilməsi məsələlərinin Dövlət Statistika Komitəsinə həvalə edilməsi, gender statistikası üzrə statistik işlərin əlaqələndirilməsi üçün Azərbaycan Respublikası Dövlət Statistika Komitəsində 1998-ci ildən İşçi Qrupunun yaradılaraq fəaliyyət göstərməsi və hazırda Dövlət Statistika Komitəsində 273 göstəricidən ibarət olan gender statistikası üzrə göstəricilər sisteminin 2-ci təkmilləşdirilmiş variantının mövcud olması və s. işlər barədə tədbir iştirakçılarını məlumatlandırdılar. Bundan əlavə, Dövlət Statistika Komitəsi tərəfindən mütəmadi olaraq hər il azərbaycan və ingilis dilində "Azərbaycanda qadınlar və kişilər" adlı 9 hissədən ibarət statistik məcmuənin hazırlanaraq nəşr edilməsi və 2012-ci ilin nəşrindən başlayaraq həmin məcmuəyə kənd təsərrüfatı üzrə gender statistikasına dair yeni göstəricilərin də daxil ediləcəyi və Komitənin veb səhifəsində yerləşdirməklə həmin məlumatların kütləvi informasiya vasitələrinə və ictimaiyyətə açıq olması barədə məlumat verildi.

Tədbir zamanı gender statistikasına dair BMT-nin Avropa İqtisadi Komissiyası tərəfindən tövsiyə olunan yeni göstəricilərin gender göstəricilər sisteminə əlavə olunması iştirakçı ölkələrin diqqətinə çatdırıldı.

Sonda MDB Dövlətlərarası Statistika Komitəsinin Sədrinin müavini A.E.Kosarev tədbiri müvəffəqiyyətlə başa çatdırmaları münasibəti ilə iştirakçıları təbrik etdi.